# Azərbaycan möhtəşəm hədəflərə doğru inamla irəliləyir



***2021-ci il istər siyasi, istərsə də iqtisadi cəhətdən ölkəmiz üçün çox uğurlu oldu. İşğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı yenidənqurma və bərpa işlərinə start verildi. Siyasi cəhətdən ən böyük uğurumuz nüfuzlu beynəlxalq təşkilatların dövlət başçımızın rəhbərliyi ilə bölgədə yaradılan reallığı qəbul etməsi oldu. Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr olunmuş beynəlxalq tədbirin Şuşa şəhərində keçirilməsi də əlamətdar bir hadisə idi.***

Prezident İlham Əliyev 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə ölkəmizin cari ildə qazandığı uğurlar haqqında ətraflı nitq söylədi. Azərbaycan xalqı torpaqlarımızı öz gücü hesabına işğaldan azad etməklə BMT Təhlükəsizlik Şurasının 30 il bundan öncə çıxardığı və kağız üzərində qalmış dörd qətnamənin icrasını da yerinə yetirmiş oldu.

BMT-dən sonra dünyanın ən böyük təşkilatı olan Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə nüfuzunu daha da artırdı. Bunu nəzərə alaraq, Qoşulmama Hərəkatının üzv dövlətlərinin dövlət başçımıza ünvanladığı xahiş məktubundan sonra ölkəmizin quruma sədrliyi bir il də uzadıldı. Qoşulmama Hərəkatı Azərbaycanın apardığı müharibədə və postmüharibə dövrlərində də hər zaman ədalətli mövqe nümayiş etdirdi.

Prezident İlham Əliyevin yürütdüyü müdrik xarici siyasət nəticəsində İslam Əməkdaşlıq Təşkilatı da Azərbaycanın mövqeyini dəstəkləyən, o cümlədən tarixi-dini abidələrimizin ermənilər tərəfindən dağıdılmasını qətiyyətlə pisləyən bir neçə qətnamə qəbul etmişdir. Bu gün ATƏT Azərbaycanın yaratdığı reallığı tam qəbul edir. Lakin təəssüflər olsun ki, ATƏT-in Minsk qrupu 28 il müddətində Azərbaycanla Ermənistan arasında mövcud olan münaqişənin həllində heç bir səmərəli fəaliyyət göstərmədi. Bu müddət ərzində qurumun nümayəndələri bölgəyə yersiz səfərlər etməklə öz işlərini bitmiş hesab edirdilər. Artıq Avropa İttifaqı da yeni reallıqları qəbul etmişdir. Brüsseldə keçirilmiş görüşlərdə imzalanan yekun sənəddə "Dağlıq Qarabağ" ifadəsi yer almamışdır. Avropa İttifaqı artıq münaqişənin həll olunduğunu qəbul edib və hazırda bu qurum Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə məşğuldur. Bu il aprelin 6-da keçirilmiş görüşdə də bu məsələlər müzakirə edilmişdir.

Azərbaycanın münasibətlərin normallaşdırılması üçün 5 baza prinsipindən ibarət təqdim etdiyi sənəd artıq Ermənistan tərəfindən qəbul edilmişdir. Bu, Ermənistanın ölkəmizin Azərbaycanın ərazi bütövlüyünü qəbul etməsindən və bizə qarşı ərazi iddialarından əl çəkməsindən xəbər verir. Ümidverici məqamlardan biri də ondan ibarətdir ki, 30 ildən sonra ilk dəfə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında münasibətlərin qaydaya salınması istiqamətində danışıqlar olmuşdur. Ermənistana aydın olmalıdır ki, Azərbaycan və Türkiyə ilə əlaqələri normallaşdırmadan inkişaf edə bilməz və 30 illik işğalçılıq siyasəti onlara baha başa gəlmişdir.

Azərbaycanda ordu quruculuğu Vətən müharibəsindən sonra da sürətlə inkişaf etdirilir. Ali Baş Komandan İlham Əliyev ordumuzun dünyanın ən müasir silahları ilə təminatına böyük diqqət yetirir. Bu gün də ordumuzda böyük islahatlar aparılır. Vətən müharibəsində böyük igidlik göstərmiş Xüsusi Təyinatlı Qüvvələrlə yanaşı, yeni qoşun növü – Komando yaradılmışdır. Hər bir Azərbaycan vətəndaşı qürur duyur ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclüləri sırasında yer alır.

Dövlət başçımızın nitqindən də məlum oldu ki, dünyada Azərbaycana dost dövlətlərin sayı artmaqdadır. Bir çox böyük dövlətlər Azərbaycanı özlərinə etibarlı müttəfiq hesab edirlər. Dünyanın ən böyük və nüfuzlu şirkətləri Azərbaycana irihəcmli investisiyalar yatırmağa səy göstərirlər.

Cari ilin birinci rübündə ölkəmizin qazandığı iqtisadi uğurlar barədə verilən məlumatdan aydın oldu ki, ÜDM 6,8 faiz, qeyri - neft iqtisadiyyatımız isə 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faiz, qeyri-neft sənaye istehsalında 18 faizdən çox olmuşdur. Qeyd olunan iqtisadi göstəricilər onu deməyə əsas verir ki, iqtisadiyyatımızın neft-qaz sektorundan asılılığı azalmaqdadır. Bu gün dünyanın əksər ölkələrində idxal ixracı üstələyir. Ölkəmizdə isə ixracımız idxalı dəfələrlə üstələyir.

Qürurverici haldır ki, bütün bu nailiyyətləri heç bir ölkədən dəstək almadan öz gücümüzə etmişik. İşğaldan azad edilmiş torpaqlarımızda quruculuq və bərpa işlərini də öz hesabımıza aparırıq. Həmin ərazilərdə yenidənqurma və bərpa işlərinin sürətlə aparılmasına ermənilər tərəfindən basdırılmış minalar ciddi problem yaradır. Ölkə başçımız ərazilərin minalardan təmizlənməsində beynəlxalq təşkilatları, bu işlə məşğul olan qurumları Azərbaycana köməyə dəvət etdi. Minaların təmizlənməsi üçün Azərbaycanın kifayət qədər texnikası və maddi-texniki bazası var, ancaq bu sahədə peşəkar işçi qüvvəsinə böyük ehtiyac duyulur. Yaxın gələcəkdə Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru dünyanın ən gözəl zonalarından birinə çevirəcək.

Bu gün dünyada gedən siyasi proseslər, müharibələr ərzaq qıtlığının yaranmasına səbəb olub. Rusiya – Ukrayna müharibəsi dünyada ərzaq qıtlığını və bahalaşmanı daha da dərinləşdirdi. Azərbaycana bu dövlətlərdən ərzaqlıq buğda ixrac olunurdu. Bu problemləri aradan qaldırmaq üçün ölkə başçımızın göstərişinə əsasən, işğaldan azad edilmiş torpaqlarımızda taxıl bitkilərinin əkilib becərilməsinə böyük diqqət yetirilir. Görülmüş tədbirlər nəticəsində işğaldan azad edilmiş 50 min hektar sahədə ikinci dəfə əkin işləri aparılacaq.

İstər Birinci , istərsə də İkinci Qarabağ müharibəsində şəhid olmuş hərbiçilərimizin ailələrinə və qazilərimizə xüsusi diqqət ayrılır. Möhtərəm Prezidentimizin göstərişinə əsasən, bu qəbildən olan insanların bütün problemləri aradan qaldırılır, onlar mənzil və fərdi evlərlə təmin olunurlar.

İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun yaradılması və əhalinin bu torpaqlara köçürülməsi üçün ilk növbədə bu ərazilərin elektrik enerjisi ilə təchizatı həyata keçirilməlidir. Ölkə başçımızın tapşırığı və şəxsən özünün iştirakı ilə, Kəlbəcərdə, Laçında, Zəngilanda, Qubadlıda bir çox su elektrik stansiyaları tikilib istifadəyə verilmişdir. Artıq Günəş və küləklə işləyən elektrik stansiyalarının tikilməsinə də start verilib. Dünyanın bir neçə böyük şirkətləri Azərbaycanda Günəş və küləklə işləyən elektrik stansiyalarının inşasına başlayıblar. Qarabağ və Şərqi Zəngəzurda belə elektrik stansiyalarının işləməsi üçün çox əlverişli şərait mövcuddur.

İşğaldan azad edilmiş ərazilərimizdə nəqliyyat infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülməkdədir. Yeni dəmir və avtomobil yollarının çəkilişi davam etdirilir. Qarabağ və Şərqi Zəngəzurda heç vaxt yolu olmayan ərazilərimizə 700 kilometrdən çox avtomobil yolu inşa edilməkdədir.

Mədəniyyət paytaxtımız Şuşada böyük quruculuq işləri sürətlə davam etdirilir. Yeni məktəb, xəstəxana, yaşayış binaları tikilir. Şəhər içməli su ilə təchiz edilmişdir. Keçən il Şuşada Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Xarıbülbül" Musiqi Festivalı keçirilmişdir. Bu ilin may ayında müxtəlif ölkələrin folklor kollektivlərinin iştirakı ilə yenə də "Xarıbülbül" festivalı keçiriləcək. TÜRKSOY–un 2023-cü ili Şuşanı "Türk dünyasının Mədəniyyət paytaxtı" elan etməsi bir daha dünyaya bəyan etdi ki, "Qarabağ Azərbaycandır!"

2022-ci ildən başlayan iqtisadi yüksəliş, xarici siyasətdəki uğurlar, mədəni sahələrdəki nailiyyətlərimiz Qarabağa Böyük Qayıdışı daha da tezləşdirir.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı, BDU-nun kafedra müdiri, professor***